**Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətləri olan bəstəkar Cahangir Cahangirovun yaradıcılığında əsas yeri mahnılar təşkil edir. Vətənə, xalqa, millətə, anaya olan məhəbbəti onun bəstələrində çox munis və ifadəli şəkildə əks-səda tapdığından musiqi libası biçdiyi misralar daha təsirli səslənir.**

**Üzeyir Hacıbəylidən dərs almış və dahi bəstəkarın yaratdığı məktəbin ən istedadlı tələbəsi olmuş Cahangir Cahangirov çox maraqlı və müxtəlif janrlı musiqi əsərlərinin müəllifidir.**



# Nikbinlik və axıcı melodika

## C.Cahangirovun musiqisi üçün səciyyəvi amillərdir

**Bununla bərabər, Cahangir Cahangirov iki əsəri ilə Azərbaycan musiqi mədəniyyətində əbədi qalmağa layiq bir sənətkar olub. Bunlardan biri böyük Füzuliyə həsr etdiyi "Füzuli kantatası", ikincisi isə İslam Səfərlinin sözlərinə yazdığı "Ana" mahnısıdır.**

Həmkarlarından fərqli olaraq, Cahangir Cahangirovun musiqisində çox incə, həssas bir ürək döyünür. Ciddi və məsuliyyətli sənətkar olduğundan hər sözə musiqi bəstələməzdi. Bəlkə də buna görədir ki, yazdığı bütün mahnılar şövqlə oxunub və əbədiyaşarlıq tapıb.

O, 20 iyun 1921-ci ildə Bakının Balaxanı kəndində neftçi ailəsində anadan olmuşdur. Hələ orta məktəbdə oxuduğu illərdə özfəaliyyət dərnəyinə yazılmış, xorda oxumuş, tarda çalmışdır. Musiqiyə göstərdiyi maraq onu Bakı Teatr Texnikumunda təhsil almağa gətirib.

1940-cı ildə Azərbaycan Dövlət Konservatoriyasına daxil olan Cahangir Cahangirov ifaçılığın sirlərini Üzeyir Hacıbəylidən öyrənib. O, özünü həmişə xoşbəxt sanırmış ki, müəllimi məhz dahi bəstəkarımız Üzeyir Hacıbəyli olub. Bu böyük şəxsiyyətin təşəbbüsü və bilavasitə rəhbərliyi altında yaradılmış bir çox musiqi kollektivlərində işləmək səadətini də yaşayan Cahangir Cahangirov çox sonralar Üzeyir bəylə keçirdiyi günləri ömrünün "ən qiymətli məqamları" adlandırıb.

Bəstəkarlığa gedən yolun ilk yaradıcılıq sınaqlarında bir sıra mahnı və xor musiqisi yazan Cahangir Cahangirovun Azərbaycan musiqi mədəniyyətinin görkəmli simaları Qara Qarayev, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Fikrət Əmirov kimi bəstəkarlarla daim təmasda olması, yaradıcılıq ünsiyyətinə qatılması həyatında dərin izlər salıb.

1947-ci ildə dahi Azərbaycan şairi Nizami Gəncəvinin 800 illik yubileyi ilə əlaqədar Cahangir Cahangirovun bəstələdiyi "Gül camalın" və xor üçün iki vokal əsəri o dövrün musiqisevərləri tərəfindən rəğbətlə qarşılanmışdır.

O illərdə müxtəlif bəstəkarlar tərəfindən irihəcmli əsərlərin yaranması bir növ dəbə düşmüşdü. Cahangir Cahangirov da "Arazın o tayında" adlı vokal simfonik əsərini yazmaqla geniş şöhrət qazandı. O dövrün bütün mətbuatı çox aktual səslənən sər-

bəst qurulmuş, lakin milli kökə bağlı bu simfonik əsərin orijinal xüsusiyyətlərinə malik olmasından söz açardılar.

Klassik şairlərin sözlərinə duyumlu musiqilər qoşan Cahangir Cahangirovun ötən əsrin ortalarında bəstələdiyi "Nazənin", "Xəzər", "Vətən qızları", "Bahar mahnısı", "Məhsul mahnısı", "Bahar olsun" və s. geniş şöhrət qazanmışdı. İnstrumental simfonik əsərlər üzərində müvəffəqiyyətlə işləyən bəstəkarın "Bayram süitası" da musiqisevərlərin diqqətini çəkmişdi.

Cahangir Cahangirovun ilk operası "Azad" adlanır. Bu əsər 1957-ci ildə Opera və Balet Teatrında səhnəyə qoyulmuş və ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Operanın librettosunu şair Hüseyn Arif yazmışdır. Bu opera Mirzə İbrahimovun "Gələcək gün" romanı və "Azad qız" povesti əsasında bəstələnmişdir.

Bəstəkarın ikinci operası isə 1978-ci ildə tamaşaya qoyulmuş "Xanəndənin taleyi" adlanır. "Təzə gəlin" operettası da 1976-cı ildə bəstələnmişdir.

Azərbaycan bəstəkarının əsərlərinin sorağı dünyanın bir çox konsert salonlarından gəlirdi. Bəstəkarı tez-tez xarici ölkələrə dəvət edir, ondan yerli ansambllarda işləməsini xahiş edirdilər.

Təbii ki, olduğu ölkələrdə Azərbaycan mədəniyyəti, musiqisi haqqında geniş məlumat verən Cahangir Cahangirov son anda Vətənə qayıtmağı, burada çalışmağı daha üstün tuturdu.

Məlumdur ki, ötən əsrin ortalarında satirik məzmunlu mətnlər əsasında oratoriyaların yaradılması yeni hadisə sayılırdı. Cahangir Cahangirov da Azərbaycanın böyük satirik şairi Mirzə Ələkbər Sabirlə bağlı oratoriya yazmışdır. Musiqi tədqiqatçıları yazırdılar ki, Cahangir Cahangirovun bu oratoriyası parlaq ifadəli melodiyaya, sədalı xor fakturasına malikdir və cəlbedicidir. Oratoriyada muğamdan improvizasiyalı xalq mahnısı rənglərindən geniş istifadə edilmişdir.

Cahangir Cahangirovun yaradıcılığında satirik və uşaq mahnı nümunələrinə də rast gəlmək olur. Həmkarları ən çox diqqəti ona yönəldirdilər ki, bu bəstəkarın mahnılarında rəqs təranələri daha güclüdür.

Bir çox mahnılarının ahəngində böyük plastiklik, ehtiraslı çırpıntı və incə bir oynaqlıq duyulmaqdadır. Vals janrına da müraciət edən Cahangir Cahangirov yalnız lirik təranələrdə deyil, hətta "Azərbaycan" adlı mahnıda da Vətənin, əməyin, həyatın məzmununu vals sədalarının ritmində tərənnüm edə bilmişdir.

Müraciət etdiyi müxtəlif musiqi janrlarında Cahangir Cahangirovun uğur qazanmasının əsas səbəbi onun xalq musiqisinə, eləcə də muğamlara bağlı olması ilə əlaqədardır.

Məsələn, müəllifin "Mərdlik nəğməsi" adlı bir mahnısında aşıq havalarının bulaq kimi çağlayan ruhu duyulur. Milli musiqimizin zənginliklərindən bacarıqla istifadə edən bəstəkar öz duyğu və düşüncələrinin ifadəsini orijinal surətdə əks etdirməyə qadir olub.

Cahangir Cahangirovun "Füzuli kantatası" ona çox böyük şöhrət gətirdi. Bəllidir ki, Azərbaycanda ilk kantata 1934-cü ildə Üzeyir Hacıbəyli tərəfindən yaradılmışdır. Bu kantata qədim Şərqin filosof-şairi Firdovsinin 1000 illiyinə həsr olunmuşdur. Sonralar isə - 1938-ci ildə Qara Qarayev Azərbaycanın ikinci kantatasını - "Ürək mahnısı"nı yazır. Üçüncü kantata Cövdət Hacıyev tərəfindən yaradılmışdır. Bu ənənəni Rauf Hacıyev, Niyazi davam etdirmişlər.

Bu sırada Cahangir Cahangirovun da töhfəsi məzmununa, səslənmə tonuna, emosionallığına, muğamın improvizasiyalı motivlərinə görə fərqləndi. Xüsusilə də Şövkət Ələkbərovanın həzin, məlahətli səsi, xoş avazlı nəfəsi kantatanın dərin hisslər, sevinc və kədər ifadə etmək imkanlarını daha da artırdı. 50 il keçir ki, "Füzuli kantatası" dinləyici ürəyini fəth etməkdə, onun hisslərini təlatümə gətirməkdədir.

Mahnıları ilə qəlblərdə özünə əbədi abidə qurmuş Cahangir Cahangirov həmişə yaşamaqdadır. Vaxtilə unudulmaz müğənnimiz Rəşid Behbudovun ifasında eşitdiyimiz "Ana" mahnısı ananın qüdrətinə layiq bir şah abidədir.

**Uzun müddət Azərbaycan Dövlət Konservatoriyasında dərs demiş Cahangir Cahangirovun musiqi mədəniyyətimizin inkişafında göstərdiyi xidmətlər sağlığında layiqincə qiymətləndirilmişdir. Müxtəlif orden və medallarla təltif edilən bəstəkar xalq artisti fəxri adına layiq görülmüşdür.**

● **Eldar DADAŞOV,**
***ADMİU-nun baş müəllimi,***
***bəstəkar***

## Ədəbiyyat

1. С. Касимова. Джангир Джангиров. Б. 1964.
2. L. Mehmandarova.Cahangir Cahangirov. B. 1967.